

# Prezident köçkünlər üçün yeni yaşayış kompleksinin açılışın etdi

*Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsi ərazisində məcburi köçkün ailələri üçün inşa edilən yeni yaşayış kompleksinin aprelin 5-də açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlər barədə dövlət başçısına məlumat verib.*

Səh.3


24 səhifə
Həftəlik qəzet

UNİKAL

№21 (1960) 6 aprel 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Hacıbala Abutalıbovdan yüz milyon istəyirlər

**On iki sahibkar baş nazirin müavininin qapısında qalıb**

**Baş nazirin müavini Hacıbala Abutalıbov yenə narazılıq yaradıb. Budəfəki narazılıq Abutalıbovun on iki sahibkarla sövdələşməsi nəticəsində ortaya çıxıb.**

**Bu barədə "Unikal"a məlumat verən mənbənin sözlərinə görə, məsələ H.Abutalıbovun Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı olduğu dönəmdən başlayıb: "Bildiyiniz kimi, tikinti ilə bağlı ölkə başçısının son fərmanına qədər iri miqyaslı tikinti işlərinə Bakı Şəhər İcra Hakimiyyəti icazə verirdi.**

Səh.2



# Növbə Fikrət Məmmədova çatır

## Əxlaqsız videoları paylaşanların siyahısı hazırlanır



*Ölkəmizdə sosial şəbəkələrdə yaradılan bəzi səhifələr toxunulmaz olan şəxsi həyatımız üçün ciddi təhdidə çevrilib. Əhalinin daha çox istifadə etdiyi İnstaqram, Facebook kimi sosial şəbəkələrdə şəxsi həyatımızla bağlı, hətta ən məhrəm məlumatların yayılması belə an məsələsidir. Bu cür məlumatlar, şəkil yaxud da videoların bir nəfər tərəfindən paylaşılması, qısa müddət ərzində daha geniş auditoriyaya yayılmasına gətirib çıxardır.*

Səh.7

## Müxalifətdə "mənə çatmayacaqsa, heç kəsə olmasın" düşüncəsi yanlışdır



*Son günlər müxalifət düşərgəsində qarşılıqlı ittihamlar. Daxili çəkişmələr daha da kritikləşib. Xüsusən də Azərbaycan Xalq Hərəkatındakı gərginlik müzakirə olunmaqdadır. Görünən odur ki, hakimiyyət əleyhdarlarının vahid mövqedən çıxış etmələri çətinləşib. Mövzu ilə bağlı "Unikal"a müsahibə verən Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev də müxalif düşərgədəki vəziyyətlə bağlı fikirlərini bildirib.*

Səh.4

## Ceyhun Bayramovdan narazılığın şifrələri...



*Azərbaycanda ən problemli sahələrdən birinin təhsil olduğunu söyləmək artıqdır. Misir Mərdanovun nazir postundan uzaqlaşdırılması (2013-cü il) sözügedən sahədə müsbətə doğru ciddi dəyişikliklərin olacağına dair ümidlər yaratmışdı. Ancaq Mərdanovun nazir postundan kənarlaşdırılmasının üstündən keçən 5 il ərzində təhsilin saysız-hesabsız problemləri hələ də öz həllini gözləməkdədir.*

Səh.12